# Əsl vətəndaş, xeyirxah insan, görkəmli alim

**"Tanınmış oftalmoloq, akademik Zərifə xanım Əliyeva ölkəmizdə bu sahədə elmi kadrların formalaşması istiqamətində böyük işlər görüb, elmin özünə çox yeniliklər gətirib. Hər bir ölkənin inkişafı elmin inkişafından asılıdır". Bu fikirləri Azərbaycan Tibb Universitetinin elmi işlər üzrə prorektoru Rauf Bəylərov akademik Zərifə Əliyevanın 100 illiyinə həsr olunmuş konfransda çıxışı zamanı bildirib.**






Əczaçılıq fakültəsi üzrə TEC-in rəhbəri, dosent Nərgiz Məmmədova bildirib ki, Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə Əliyeva təbabətdə öz dəst-xətti ilə seçilmişdir. O, həm də əsl vətəndaş, xeyirxah insan kimi yaddaşlara həkk olunmuşdur.

Tələbələrin konfransa hazırlıq prosesini əks etdirən videoçarxın nümayişindən sonra Milli Oftalmologiya Mərkəzinin elmi təşkilatı, tədris və metodik bölməsinin müdiri Yazgül Abdıyeva akademik Zərifə Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafındakı müstəsna xidmətlərindən danışıb. Qeyd edib ki, Zərifə xanım Azərbaycanda geniş yayılmış traxomanın müalicəsi, peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsi, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox tədqiqatların müəllifidir.

Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli akademik Zərifə Əliyevanın məşhur həkim olması ilə yanaşı, həm də qayğıkeş insan kimi yaddaşlarda qaldığını qeyd edib: "Zərifə xanım həyatda iz qoyub getməyi bacaran insanlardandır. Zərifə xanım valideynlərinə layiqli bir övlad, sədaqətli ömür-gün yoldaşı və qayğıkeş ana idi. TEC konfransının belə bir şəxsiyyətin 100 illiyinə həsr edilməsi bizim üçün böyük bayramdır".

ATU-nun TEC rəhbəri, dosent Müşfiq Həsənov da böyük ziyalı alim, oftalmoloq Zərifə xanım Əliyevanın 100 illiyinə həsr olunduğu üçün bu tədbirin önəminin böyüklüyünü qeyd edib. Deyib ki, məşhur alim, tanınmış həkim və istedadlı insan Zərifə Əliyevanın apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, fundamental əsərləri Azərbaycanda təkcə oftalmologiya yox, ümumiyyətlə tibb elminin parlaq səhifələrini təşkil edir.

Konfransa 71 tələbə 46 elmi iş təqdim edib. "AzerMed" QSC-nin dəstəyi ilə keçirilən tədbirdə 15 elmi iş mükafatlandırılıb. "Ən yaxşı poster", "Ən yaxşı eksperimental iş", "Ən yaxşı referativ iş" kimi nominasiyalar üzrə qalib olan tələbələrə diplom və xüsusi hədiyyələrlə yanaşı, pul mükafatları da təqdim edilib.

***Zərifə HÜSEYNOVA,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2023.- 5 aprel.- S.5.